

# Vasıl Stus

Görkənli Ukrayna şairi Vasıl Stus 1938-ci ildə Vinnitsa mahalında anadan olub. “Xalqlar ata”sının adını daşıyan, sonralar bu “atalığı” rədd edən Donetsk vilayətində boya-başa çatıb, pedaqoji institutu bitirəndən sonra bir müddət Kirovoqrad tərəflərdə müəllim işləyib, şairliklə yanaşı fəal ictimai xadim kimi də ad çıxarıb. 1963-cü ildə Kiyevə gəlib Taras Şevçenko adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olub. Donbas mühitinin mühüm təsirləri yaradıcılığında və ictimai baxışlarında əsaslı iz qoyub. Belə ki, Donbas demoqrafik göstəriciləri, milli-ictimai fikir baxımından Ukraynanın ən çox ruslaşdırılmış bölgəsi idi, indi nə baş verdiyini isə hamımız çox yaxşı bilirik. İvan Dzyubanın “Daş qaranlıqda şam” məqaləsindəki sözləri ilə desək, Donbasda Ukrayna dili qəribliyə salınır, əsasən kəndlərdə, qəsəbələrdə işlənirdi. Bu vəziyyət, təbii ki, milli mənliyi, vətəndaş təəssübkeşliyi olan Ukrayna ziyalılarında etiraz ovqatını doğurur, imperiyaya qarşı olan ziyalıların azadlıqsevər baxışlarına təkan verirdi. O cümlədən Vasıl Stusun yaradıcılığına da. Amma yazılan, deyilən hər bir kəlmə qeydə alınır, sistemin “sədaqətli” məmurlarının gözündən yayınmırdı. Altmışıncı illərin “ılıqlığı” elə Xruşşovun öz vaxtında ötüb keçir, o vaxtkı İttifaq çapında Sinyavski, Daniel, Brodski və başqa hadisələrlə müşayiət edilən yeni repressiya dalğaları başlayırdı. Ukrayna da kənarda qalmırdı. 1972-ci ildə yanvarın

12-dən 13-nə keçən gecə Vasıl Stusu (və başqalarını da) da həbs edirlər. Hər şey qabaqcadan hazırlanmış, bütün ittihamlar "sübuta yetirilmişdi". Stus "antisovet fəaliyyət"də ittiham edilmiş, "xüsusi təhlükəli dövləti cinayətkar" kimi qəbul edilmişdi. "Gedər-gəlməzə" qapılar açılmışdı. Kolıma, Maqadan, dəhşətli soyuqlar, şaxtalar, gözyoran buzlu çöllər, vətən həsrəti. Üstəgəl işıq üzü görmüş bir-iki kitabı yasaqlanmışdı.

Layiq olduğu şöhrət öləndən sonra (1986) onu tapdı. 1990-cı ilin iyul ayında Ukrayna SSR prokurorunun imzasıyla "Vasıl Semyonoviç Stus haqqında məhkəmə hökmünə xitam verilməsi və onun əməllərində cinayət tərkibi olmadığına görə məhkəmə işinin bağlanması" barədə məlumat verildi, prokurorun etirazı respublika Ali Məhkəməsinin plenumu tərəfindən qənaətbəxş bilindi... Şair ölümündən sonra Taras Şevçenko adına Dövlət Mükafatına layiq görüldü... Sovet dövründə sistemə uyğun danışmayan, yazmayan Ukrayna ədibləri çox olub. Özü də həmişə: Stalinin qılıncının dalının-qabağının kəsdiyi vaxt da, sonra da , Brejnevin durğunluq adlandırılan "şahlıq" dövründə də. Vasıl Simonenko, Lina Kostenko, Oles Qonçar, İvan Dzyuba, Valeriy Marçenko, İvan Svetliçnı, Vasıl Qoloborodko, Mikola Rudenko, Oleksa Tixi və başqa müxtəlif miqyaslı sənətkarlar barədə bir qayda olaraq geniş məlumatlar verilmir, "kütləvi" lənətləməyə, "daşqalağ"a məruz qalan bu şair və yazıçılar, adətən, "gecikmiş tarixlə" parlayırdılar böyük ədəbiyyat səmasında. Vasıl Stus da bu böyük şəxsiyyətlərin sırasında yaradıcılığı və faciəli həyatı ilə ən öncül yerdə dayanırdı.

## Xatirə

Qızıl qumlu sahildə
köpüklü sular,
Duzlu tünd sifətimdə
  nəsə sancı var.
Cod baxışım bələnir
  ipək kimi istiyə,
Günəş axşamı enir
  uzaqdakı gədiyə.
Yatmasa da günbatan,
   ulduz hey gülümsəyir,
qürubun arxasından
   bu gecəni gözləyir.

## Meşə məni buraxıb qucağından

Meşə məni buraxıb qucağından,
boş çöllərə ismarladı. Gedirəm
qalın qarla. Nə bir yol var, nə cığır.
Qarışdırıb hər şeyi qış yenidən,
Bəs eləysə yolu necə tapasan?
Həm də ki sən özün bir ağacsansa:

başın kəsik, qəlbin qırıq, içində
yenə qərib təlaş gəzir, vurnuxur.
Külək əsir, ləpirini qar tutur.
Getmək... getmək... lap ağlın çaşanacan,
üzüqoylu yıxılıb duranacan.
Səni gəzdim, satqın bacı, cadugər,
Səni gəzdim, ey Qış, daim, sərasər.

## Hardasa gizlində tufan yetişir

Hardasa gizlində tufan yetişir,
Hardasa toy çalır, vurulur təbil.
Mənim qismətimsə qışqırıq, təhdid
Hər küncdən boylanır gözətçi kimi.
Niyə? Nədən ötrü? Axı bilmirəm.
Boğaz arıtlayır mis boru yenə.
Qazamatda zaman sürünür yernən,
Rəislər qışqırır, işıqlar sönür.

## Sütül ot-ələfə həmən şeh düşür

Sütül ot-ələfə həmən şeh düşür,
Palıd budağında oxuyur bülbül.
Gecənin içindən səssiz ötüşür –
Çayın dərin yeri qəlbim kimidir.
Başımın üstündə titrək ulduzlar
Cələdə quş kimi çırpınır ürkək.
Zülmətin, küləyin yolayrıcında
Gündüz öz işində yenə bərq vurur.
Müqəddəs torpağın ağuşunda mən
Yıxılıb çəmənə, uyuyacağam,
Ölümün qoşunu gəlir ardımca
Rəbbə güvən ilə sığınacağam.

## Yaddaşım, geri dön, düz mənə doğru

Yaddaşım, geri dön, düz mənə doğru,
Qoy gözəl bəlatək qəlbimə dolsun
Hüznlə, sevgiylə vətən qoxusu.
Qoy bülbül sevgiylə ötsün, oxusun
Bütün meşə üçün. Qayıt, yaddaşım,
Yayda kəklikotu ətriylə qayıt.
Payız cövhəriylə qoy almaların
qızılı yuxuda qonağım olsun.
Vüqarlı Dneprin suları axsın,
Açılsın qırışı yuxularımda.
Çağırım, qoy məni Vətən eşitsin,
Geri dön, yaddaşım, yarım-yoldaşım.

## Düşünmə. Yat. Yum gözünü. Yuxula

Düşünmə. Yat. Yum gözünü. Yuxula.
Yumuldusa, açmayasan gözünü.
Bütün sirlər faş olacaq yuxuda,
Olmadısa, dəyməz, üzmə özünü.
İşıq qılınc kimi girər qınına,
Üfüq də keçmiştək uzaq, görünməz.
Qalxantək üstünə enər qaranlıq,
Boş günlərdən ömür necə hörülsün?

## Qazamat sərçəsinin nəğməsi arasından

Qazamat sərçəsinin nəğməsi arasından
Ucaltmağa başladı arıquşu səsini,
Dərdin göy ipliyini əyirdi asta-asta,
Qar altında qəddini novruzgülü dirçəltdi.

## Səni xatırladım, cavanlığım, sən

Səni xatırladım, cavanlığım, sən
Məni dolanbacda aramaqdasan.
Qorxunc gözəlliyin nişanəsitək
Başının üstündə qara buludlar.
Can atdım zirvədən zirvəyə, göyə,
Yalnız içimdəki doğru sözləri
Yollar bir yerlərə varıb çıxartdı,
Şəxsi qismətimsə bəladı, dərddi –
Ötən illərimi alıb apardı.
Sən isə, gəncliyim, sirlim, pünhanım,
Axı harda qaldın, yox oldun, itdin?
Axırım, deyəsən, o qədim yoldu:
Sonunda qurumuş ağac-xaç kimi.

## Balzak, qibtə elə: bax, bu da cübbə

Balzak, qibtə elə: bax, bu da cübbə,
sakitlik, tənhalıq, bir də qaranlıq.
Çox tezdir yatağa girmək, əlbəttə,
gözünü döyürsən odur ki yalnız.
Sanki teleqüllə işığısan sən –
simlərlə axışan yaqutu bir ruh.
Budur baş qaldırır yenə ilhamın,
Xəyallar içində azmağa qoymur.
Şirin arzuların belini qırıb,
“Ali ucalığı tanı!” – əmr edir.
– Orda nə ümid var, nə də ki sevinc,
Orda Sənin evin: halal və təmiz!

## Tikanlar dalında cənnət varıymış

Tikanlar dalında cənnət varıymış:
güllər, günəş rəngli arılar, çəmən,
sükut, sevinc, bir də gülərüzlü yaz-
Rəbbin bəxşişidir! Çox şey istəmə.

Unut, arzuların uçuşunu qır,
Həsrətin yuxusu dağılsın orda,
Görüş və ayrılıq bitsin, yox olsun,
Dərdlərin hesabı silinsin, itsin.

Ot üstə qaçışsın mordov küləyi,
Bulud sürüsünü çəkib gətirsin.
Şükürlə duanın dur arasında,
Və bacar xoşbəxt ol, sən, ey gənc əsir!

## Ömrün keçib getdi, olmamış kimi

Ömrün keçib getdi, olmamış kimi.
Səslər eşidilmir, gün isə ağır.
Qəlbin vəhşi kimi, qəlbin ağrıyır,
Gözəllik göz üçün deyil ki indi.
Gecə ötüb keçir, alıb aparır
Sübhün yuxusunu, xəyallarını.
Mənim gözüm şeir, gözəlim şeir,
Əvvəlmi yaşadım səndən, sonramı?

*Tərcümələr Səlim Babullaoğlunundur*

## Yüz ildi son qoyub yağılar Seçə

Yüz ildi son qoyub yağılar Seçə,*
Sibirlə Solovki alıb payını...
Çulğayıb başını itirmiş gecə
Məşəqqət yurdunu, yurd harayını.

Yüz ildi... puç olmuş kövrək ümidlər,
Axan nahaq qanlar, tapdanmış inam,
Vətən sevgisiylə yanan şəhidlər;
Yüz il söndürülən, tüstülənən şam.

Tüstülü damlardan başı papaqlı,
Ayağı çarıqlı qalxışan qullar –
Azadlıq soraqlı, sinəsi dağlı
Ana Ukraynaya oğul oldular.

Sən daha ölməzsən, möhkəmdir canın –
Yüzillər boyunca əzilən torpaq,
Sənə qənim olan, səni boğanın
Sibirlər karına yaramayacaq.

Ağrı-acılara tab gətirərək –
Doğransan, bölünsən parça-parça da,
Qalxasan ayağa, qalxasan gərək,
Qaynayır azadlıq əzmi qanında.

Qəzəblə yoğrulub düzəlir qəddin,
Rahatlıq tapmazsan öc almayınca;
O qəzəb artacaq, coşacaq yəqin
Zindan qapıları dağılmayınca.

---

*** Zaporejye kazaklarının müstəqil dövlət qurumu, XVIII əsrin sonlarında çar qoşunları tərəfindən dağıdılıb.**

Sənin ağ gününü göy alqışlayır,
Şimşəklər fişəngtək axıb yanırlar;
Taras misraları – müjdə quşları
Dnepr üzərində havalanırlar.

## İlahi, bu günü bəxş elə bizə

İlahi, bu günü bəxş elə bizə!
Sabahı demirəm, təkcə bu günü.
Vətən ocaqları sönür göz-gözə,
Yandırıb-yaxırlar vətən mülkünü.

Yolumu kəsibdi nə qədər qanqal;
Könlüm təşnəlidi, yamandı halım.
Gözünün ucuyla bizə nəzər sal,
Toxtat ağrıları, qurbanın olum!

## İvanın gülümsər üzün görmədən

İvanın * gülümsər üzün görmədən
Gecələr Kiyevim mürgüləyərkən
Dostumu şərləyir kimsə dəmadəm.
Gözümü bir an da yuma bilmirəm,
Dumanlı çöhrəsi qarşımda durur,
Bir kəlmə deməyir, elə hey susur.
Ey nurlu, işıqlı günəşciyəzim!
Sənə çatacaqmı bu qərib səsim?
Yanına yol salan müsafirlərin
Sovqatı – iftira, ərməğanı – kin.

---

*** İvan Dzyuba — müəllifin məsləkdaşı, sovet dövründə təqiblərə məruz qalmış vətənpərvər şair**

İvancan! Uzaqdan qulaq as mənə;
Vallah günahımı hələ bilmirəm.
Nədən indiyədək, de görüm, axı
Mübarək evinə gələ bilmirəm?
Bağışla, Xreşşatik... mehriban küçə...
Burda, bu şoğərib qazanxanada
Ocaq qalayıram heydən düşüncə –
Taqət qalmasa da, tab qalmasa da.

## Orxanı, Nezvalı, Danteni yenə

Orxanı, Nezvalı, Danteni yenə
Oxuyub varıram yerin tərkinə,
Cəhənnəm oduna qatılır ahım.
Qalın qovluqlarda yatır günahım.
Onları yazanlar, satqın ozanlar
Əlimdən almışlar bu gen dünyanı –
Yurdumu, yuvamı, yeri, səmanı.
Mənə verdikləri – məşəqqət dağı,
Bir də əsarətdə sürünmək haqqı...
Şaxtalar cəngində yatır ərənlər,
Ay canı çıxmışlar, lənət baisə!
Taqətsiz, çarəsiz batır ərənlər,
Onların əlindən nə gəlir, gəlsə,
Kiməsə toxtaqlıq, təskinlik verər,
Əzilən olanda araya girər,
Yaşamaq naminə zülümə gedər,
Ölməmək naminə ölümə gedər!
Qardaşım, səni də cəza haqlasa,
Onda dar olmazmı qara yer mənə?..
Əlvida deyərəm, bəxtin bağlansa,
Qorxaqlar, qatillər məmləkətinə.

## Kolımada kəklikotu qoxusu

Kolımada kəklikotu qoxusu,
Üzərlikdən qaçır əcəl qorxusu.
Əziz bacım, mən sənə baş əyirəm,
Gözü yaşlı xəyalını öpürəm.
...Zindan qapısının dördbucaq gözü,
Laqeyd gözətçinin mürdəşir üzü,
Balanın harayı qulaqlarımda:
“Atacan, atacan, tez qayıt, ata...”
Dəhşətli yuxumu, gerçəkmi bunlar?
Zalım zəmanədən qalmısan naçar,
Bir üzün qız oldu, bir üzün gəlin,
Yollara uzalı qalan əllərin,
Həsrət havasını çalan əllərin,
Atlant harayını qoparıb coşur,
İnləyə-inləyə ardımca qoşur...
Sən, ey basmarlanmış, heysiz vətənim,
Bölünmüş, yadlaşmış, aciz vətənim,
Candərdi yer verib kəmfürsətlərə,
Sən özün özünə olmusan qənim!
Canına bu qədər yad daraşanda
Tanınmaz nə bacın, nə qardaşın da.
Eşitsən kiminsə ahu-zarını,
Onda tanıyarsan doğmalarını.
Məhbəs qapısını yumruqlayanlar,
Yolunda bizlərik fəda olanlar.
Yüz ildi döyürük bağlı qapını,
Yüz il də döyəcək bundan o yana,
Gəl, çat dadımza, zavallı ana,
Gəl, ürəyi dağlı, havalı ana...

## Keçəl dağda sönən tonqal soyuyur

Keçəl dağda sönən tonqal soyuyur,
Ətəyində qızıl xəzəl yanıxır.
O dağ harda heç bilmirəm darıxır,
Yoxsa məni yavaş-yavaş unudur.
Kövrək-kövrək ayrılığın çağları!
Heç bilmirəm, baş açmıram mən bu dəm,
Mən sağmıyam, ölümü, ya diriyəm?
Hər şey bitdi, bağladı yollarımı.

Sən də quştək bu nəhs ölüm-itimdə
Dərdimizin başı üstə uçursan,
Yox, bağışla, susmaq yaxşı. Ay aman,
Necə yanıb-yaxılıram içimdə...
Ovucların qəm qoxuyur hələ də,
Acı, yaşlı dodaqların yuxumda,
Kölgən quştək hey çırpınır bu vədə,
Bülbül ötür çalın-çarpaz dağımda...

## Meymunlar içinə düşən kimiyəm

Meymunlar içinə düşən kimiyəm,
Başımı çırpıram daş divarlara,
Onlara – rəzil qul, ümmətə yara,
Beləcə-beləcə ömür sürürəm.
Keçirlər yanımdan şəst ilə onlar,
Mənə yuxarıdan tərs baxa-baxa.
Can atsam da özüm özüm olmağa,
Taqətim tükənib, qalmışam naçar,
İlahi, nə ağır işgəncədir ki,
Dünyada civətək xirdalanasan,

Bir ovuc, bir əlçim küt ağrı təki,
Qovrula-qovrula qurdalanasan.

## Maşınlar acmış qurd sürüsü kimi

Maşınlar acmış qurd sürüsü kimi,
Alışan gözlərə sanki qan sızmış.
Axşamdır, hanı bir könül həmdəmi?
Qənimlər boldusa – nə dost, nə tanış?

Yağılar kütləsi kəsir nəfəsi,
Yenə də tükənmir bu qənaətim:
Vəhşilik dövranı ötüb keçəsi.
Hayıf ki, gödəkdir ömür nəşəsi,
Qısadır həyatın acı nəşəsi.

*Ukrayna dilindən tərcümələr Səyavuş Məmmədzadənindir*